**Əsrlər boyu dünya səhnəsində öz sözünü demək istəyən xalqların əsas mübarizə yolu milli maraqlara söykənən prinsipial və uzaqgörən siyasətdən keçib. Bu gün isə həmin tarixi gerçəklik Azərbaycan reallığına çevrilib. Ölkəmiz Prezident cənab İlham Əliyevin liderliyi ilə həm regional, həm də qlobal miqyasda artan nüfuzu ilə diqqət mərkəzindədir. Təsadüfi deyil ki, rəsmi Bakı bu gün dünyanın aparıcı geosiyasi qaynar nöqtələrində gündəmi ayrılmaz tərkib hissəsinə çevrilib. Müasir dövrün mürəkkəb çağırışları fonunda Azərbaycan nəinki müşahidəçi, həm də təşəbbüskar və qərarverici bir aktor kimi çıxış edir. Milli maraqlara əsaslanan, uzunmüddətli strateji baxışla formalaşan daxili və xarici siyasət Azərbaycanın beynəlxalq münasibətlər sistemində əhəmiyyətli mövqeyə sahib olmasını təmin edib. İstər enerji layihələri, istər nəqliyyat dəhlizləri, istərsə də təhlükəsizlik məsələləri baxımından rəsmi Bakının iştirakı ilə həyata keçirilən təşəbbüslər regionun gələcəyinə yön verən əsas amillərdir. Cənubi Qafqazda elə bir strateji layihə yoxdur ki, Azərbaycanın iştirakı və razılığı olmadan həyata keçirilə bilsin. Bu isə illərlə formalaşmış güclü iradənin, diplomatik bacarığın və iqtisadi sabitliyin məntiqi nəticəsidir.**

# Strateji dialoqdan real tərəfdaşlığa: güclənən beynəlxalq mövqe



Azərbaycanın yaratdığı bu unikal model beynəlxalq aləmdə də maraqla izlənilir. Xüsusilə, Avropa İttifaqının Cənubi Qafqaza artan diqqəti bu marağın bariz ifadəsidir. Aİ artıq regionun sabitliyi və təhlükəsizliyi məsələsində Azərbaycanın roluna ciddi yanaşır. Avropanın enerji təhlükəsizliyində Azərbaycanın alternativ və etibarlı tərəfdaş olması Brüsselin siyasətində yeni yanaşmalara yol açır. İllər öncə tərəddüdlə baxılan əməkdaşlıq bu gün qarşılıqlı inam və konkret nəticələrlə müşayiət olunur. Bu həm də Avropanın öz maraqları baxımından rasional yanaşmadır. Beləliklə, keçmişdə bəzən qərəzli, bəzən də tərəddüdlü görünən yanaşmalar artıq daha konstruktiv və qarşılıqlı faydaya söykənən bir mərhələyə qədəm qoyur.

Prezident İlham Əliyevin Albaniyada keçirilən "Avropa Siyasi Birliyi" Zirvə toplantısında iştirakı ölkəmizin bu strateji xətt üzrə irəlilədiyini, diplomatik fəallığını yeni zirvələrə daşıdığını bir daha nümayiş etdirdi. Sözügedən platforma bu gün Avropanın taleyüklü məsələlərinin müzakirə olunduğu, təhlükəsizlikdən tutmuş enerji və siyasi inteqrasiyaya qədər ən aktual məsələlərin masaya yatırıldığı nüfuzlu platformadır. Bu birlik Avropa İttifaqının təşəbbüsü ilə formalaşıb və özündə qitənin sabahını müəyyənləşdirəcək dövlət liderlərini bir araya gətirir. Azərbaycanın bu masada təmsil olunması isə zamandan və qətiyyətli diplomatiyadan doğan bir zərurətdir. Çünki artıq Azərbaycan etibarlı enerji təchizatçısı, tranzit ölkə və regional lider dövlətdir. Bütün bunlar həm də Avropanın təhlükəsizlik arxitekturasında mühüm sütunlardan biridir.

Prezident İlham Əliyevin Zirvə görüşündə iştirakı, o cümlədən burada keçirilən görüşlər bir daha sübut etdi ki, ölkə başçısının qlobal müstəvidəki imperativləri diqqətlə izlənilir. Xüsusi vurğulanmalıdır ki, ölkə başçımız Tiranada Albaniya Respublikasının Baş naziri Edi Rama ilə işçi nahar əsnasında görüşü oldu. Söhbət zamanı iki ölkə arasında ikitərəfli münasibətlərin, xüsusilə, enerji sahəsində inkişafdan, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıqdan məmnunluqla bəhs edildi. Bununla yanaşı, Albaniyanın Korça şəhərinin Azərbaycan qazı ilə təchiz edilməsi layihəsinin önəmi vurğulandı. Daha sonra Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə keçirilən görüş bir daha Aİ-Azərbaycan münasibətlərindəki müsbət çalarları ortaya çıxardı. Azərbaycanın Mərkəzi Asiya regionu ilə əlaqələri və Orta Dəhlizdə aparıcı rolu, ölkəmizin regionda və onun hüdudlarından kənarda sülhün və sabitliyin təmin olunmasında müxtəlif tərəflər arasında dialoqun aparılması üçün platforma olduğu da məmnunluqla qeyd edildi.

Avropa liderlərinin Prezident İlham Əliyevlə görüşmək istəyi, ona diqqət və hörmətlə yanaşması Azərbaycanın artan nüfuzunun parlaq göstəricisidir. Digər tərəfdən, böyük mənzərəyə diqqət yetirdikdə bir mühüm məqam aydın görünür ki, Azərbaycan nə qədər təşkilata üzv olub-olmamasından asılı olmayaraq, dünyanın nüfuzlu dairələrində daim dəvət olunan tərəfdaşdır. Bu isə diplomatik münasibətlərdə artıq formal üzvlük çərçivələrinin önəmini arxa plana keçirir. Reallıq, güc, təsir və etimad əsas meyarlara çevrilir. Məhz bu mənada Azərbaycan öz real diplomatik çəkisi və liderlik bacarığı ilə seçilir. Bu da Prezident İlham Əliyevin illərlə qurduğu strateji və düşünülmüş siyasətin məntiqi nəticəsidir.

Xatırladaq ki, 2022-ci ildən etibarən fəaliyyət göstərən "Avropa Siyasi Birliyi" qitənin diplomatik atlasında mühüm yer tutur. Avropa İttifaqının təşəbbüsü ilə yaradılan bu platforma təhlükəsizlik, enerji, iqtisadiyyat və siyasi inteqrasiya kimi strateji mövzular ətrafında fikir mübadiləsinin aparıldığı siyasi dialoq məkanı kimi ön plana çıxır. İndiyədək beş dəfə keçirilmiş Zirvə toplantıları Avropanın gələcəyinə yön verən mühüm qərarların formalaşdığı yüksək səviyyəli siyasi görüşlər kimi tarixə düşüb. Xüsusilə, Azərbaycan Prezidentinin önəmli görüşlərdə iştirakı isə ölkəmizin bu platformaya verdiyi əhəmiyyətin və Avropa siyasətindəki aktiv rolunun bariz təzahürüdür. Qeyd olunmalıdır ki, sonuncu Zirvə toplantısı ötən il Böyük Britaniyada təşkil olunub və bu mötəbər tədbirdə Prezident İlham Əliyev Birləşmiş Krallığın Baş naziri Kir Starmerin xüsusi dəvəti ilə iştirak edib. Bu mühüm məqam Azərbaycanın artıq sadəcə regionun taleyinə yön verən deyil, Avropa qitəsinin siyasi gündəmində mühüm mövqeyə sahib bir tərəfdaş olduğunu göstərir. Ölkəmizin təşəbbüsləri, xarici siyasət prioritetləri və beynəlxalq proseslərdəki fəallığı sayəsində "Avropa Siyasi Birliyi" kimi yüksək tribunalar Azərbaycanın haqlı yer aldığı diplomatik meydanlara çevrilir.

Ümumiyyətlə, Aİ-Azərbaycan münasibətlərində yeni səhifənin açıldığı gerçəklikdir. Mövcud zaman kəsiyində Aİ-nin yeni rəhbər heyəti Azərbaycanla münasibətlərdə xaotik isterikalardan olduqca uzaqda qərarlaşıb. Bu il aprelin 25-də Prezident İlham Əliyevin Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul etməsi yeni strateji dövrün rəmzinə çevrildi. Kaya Kallasın Qafqaza səfəri, xüsusilə də Bakıya olan diqqəti, Avropa İttifaqının bölgəyə baxışında mühüm dəyişikliklərin baş verdiyini nümayiş etdirdi. Səsləndirilən fikirlərdən aydın oldu ki, rəsmi Brüssel artıq Azərbaycanı yalnız enerji resursları ilə tanınan tərəfdaş kimi yox, həm də strateji sabitliyin əsas dayağı, etibarlı və iradəli regional güc kimi qəbul edir. Avropalı qonaq açıq şəkildə bəyan etdi ki, Azərbaycanla əməkdaşlıq Avropa İttifaqı üçün prioritet olmaqla yanaşı, qarşılıqlı etimada və ortaq maraqlara söykənən bir strateji tərəfdaşlıqdır. Onun sözlərinə görə, Azərbaycan bu sahədə özünü səmərəli, davamlı və etibarlı tərəfdaş kimi sübut edib.

Digər tərəfdən, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın bu il yanvarın 9-da Prezident İlham Əliyevə zəng etməsi Aİ-Azərbaycan münasibətləri üçün müsbət sayıla bilər. Xüsusi vurğulanmalıdır ki, telefon söhbəti zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat, xüsusilə trans-Xəzər-Orta Dəhliz marşrutu üzrə daşımalar və "yaşıl enerji" dəhlizinin yaradılması layihəsi diqqət mərkəzində olub. Bununla yanaşı, Azərbaycanın Avropa İttifaqına üzv ölkələrə qaz ixracı və enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Bütün bunlar bir daha Aİ-nin Cənubi Qafqaza yanaşmasının yeni nizamdan daha fərqli və optimist olacağını göstərir.

Aİ-nin yeni nizamda ölkəmizə qarşı müsbət yanaşmasının daha bir səbəbi isə Azərbaycanın Şərqlə Qərbi birləşdirən etibarlı tərəfdaş imicidir. Təsadüfi deyil ki, Mərkəzi Asiya və Yaxın Şərqlə güclü əlaqələrə sahib olan rəsmi Bakının qlobal düzənə vəd etdiyi dividendlər olduqca böyükdür. Yeri gəlmişkən, Azərbaycan diplomatiyası 2025-ci ilin yazında daha bir mühüm səhifə yazdı. Prezident İlham Əliyevin 22-24 aprel tarixlərində Çin Xalq Respublikasına həyata keçirdiyi dövlət səfəri Azərbaycanın Asiya-Sakit okean regionundakı nüfuzunun artması baxımından tarixi əhəmiyyət kəsb etdi. Bu səfər dünya miqyasında ciddi maraqla qarşılandı, çünki burada strateji dərinliyə malik əməkdaşlıq niyyətləri özünü göstərir. Pekin şəhərində Azərbaycan Prezidentinin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə keçirdiyi yüksək səviyyəli görüş və aparılan danışıqlar dövlətlərarası münasibətlərə yeni nəfəs gətirdi. Bu görüşlərdə səslənən fikirlər, imzalanan sənədlər və nümayiş olunan qarşılıqlı hörmət, Azərbaycanla Çin arasında əlaqələrin sadəcə mövcud statusla kifayətlənmədiyini, əksinə, yeni və çoxşaxəli mərhələyə qədəm qoyduğunu göstərdi. Səfərin kulminasiya nöqtəsi isə şübhəsiz ki, hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyanatın imzalanması oldu. Bu sənəd dövlətimizin qlobal miqyasda artan siyasi çəkisini və etibarlı tərəfdaş kimi qəbul edildiyini bir daha sübut etdi. Belə bir razılaşmanın dünyanın ən böyük iqtisadi güclərindən biri olan Çinlə imzalanması Azərbaycanın xarici siyasətindəki çoxvektorlu yanaşmanın uğurlu nəticəsi kimi tarixə yazıldı. Bu səfər həm də Azərbaycanın beynəlxalq sistemdəki rolunun ancaq enerji və logistika ilə məhdudlaşmadığını, siyasi müdriklik və qlobal sabitlik çağırışlarına verdiyi töhfələrlə daha da dəyər qazandığını nümayiş etdirdi.

Qlobal müstəvidə etibarlı enerji təminatçısı profili ilə daim diqqət mərkəzində olan ölkəmiz bu gün 10 Avropa ölkəsini öz "mavi yanacağ"ı ilə təmin edir. Digər tərəfdən, 2018-ci ildə yaradılmış Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, yaxud Trans-Xəzər Şərq-Qərb-Orta Dəhliz Təşəbbüsünə (Orta Dəhliz) strateji cəhətdən Aİ üçün olduqca önəmlidir. Orta dəhliz Şərqlə Qərb arasında dayanıqlı logistikanın təşkili üçün ən optimal variantdır və həm Çin, həm də Avropa regionu ölkələri üçün nəqliyyat şaxələndirilməsinə ehtiyacları qarşılayan unikal variantdır. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, bundan sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır. Yəni ölkəmizə olan qlobal diqqət və nəzər milli maraqlara əsaslanan diplomatik-strateji xəttin müəyyən edilməsi, etibarlı tərəfdaş imici, suveren və müstəqil statusu kimi ali amillər əsasında formalaşıb. Şübhəsiz, bütün bunlar Prezident cənab İlham Əliyevin zərgər dəqiqliyi ilə hesablanmış siyasət kursu əsasında mümkün olmuşdur.

**Nurlan ABDALOV,**
**"Respublika".**